**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİİLIYİ**

**BAKI İDARƏETMƏ VƏ TEXNOLOGİYA KOLLECİ**

# MALİYYƏ KREDİT VƏ BANK İŞİ

**(SİLLABUS)**

**Müəllim: ____________ T.Ə.Bəşirova**

**Bakı -2018**

# SİLLABUS

# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

## BAKI İDARƏETMƏ VƏ TEXNOLOGİYA KOLLECİ

(Orta ixtisas təhsili müəssisəsinin adı)

**____ MALİYYƏ KREDİT VƏ BANK İŞİ___**

(Fənnin adı)

Bİ VƏ TK «Ümuminşaat və mühasibat» fənn birləşməsinin 14.09.2017-ci ildə tərtib etdiyi proqramı üzrə təsdiq olunub

**______Bəşirova Təranə Əlisəfa qızı tərəfindən hazırlanıb___**

(müəllimin soyadı, adı, atasının adı)

**2018-ci il**

# 1.Müəllim haqqında məlumat

**Soyadı: _____Bəşirova__________________________________________**

**Adı: ______Təranə____________________________________________**

**Atasının adı:_____Əlisəfa___________________________________________**

**Təhsili: _____Ali_______________________________________________**

**Elmi adı: _____________________________________________________**

**Vəzifəsi: _____Müəllim_________________________________________**

**Əlaqərekvizitləri:________________tel(mob)_055-408-53-43______________**

**Gün ərzində kollecdə olduğu vaxt:____$12^{00}$ - $18^{00}$______________________**

**Təltiflər: ___________________________________________________________**

**Xarici dil:____rus______________________________________________________**

## 2. Fənn haqqında məlumat

**Fənnin kodu:____ İPSF-B01 _____________________________________**

**Fənnin növü:___________Humanitar___________________________________**

**Fənnin tədris ili:______________2017/18_________________________________**

**Auditoriya:___________________________№___411/412_________________**

**Fənnin krediti:____ 6________________________________________________**

**Fənnin tədris yükü (saat):____90_______________________________________**

**Fənnin prerekviziti:_Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn ____yoxdur.____________________________________________________________**

**Fənnin tədris forması:__ qarışıq (mühazirə; məşqələ)____________________**

## 3.Fənnin əsas məqsədi

Maliyyə anlayışı pul və əmtəə-pul münasibətləri ilə qırılmaz surətdə əlaqə-dardır. Əmtəə-pul münasibətləri şəraitində pulun hərəkətinin fasiləsiz prosesində, onların bir sahibkardan digərinə keçidi baş verir. Maliyyə latınca finansiya sözü olub tərcüməsi – pul vəsaiti, pul dövriyyəsi, pul tədiyəsi deməkdir. Pul maliyyənin mövcudluğunun mütləq şərtidir. Maliyyə həmişə pul formasına malikdir. Yəqin ki, məhz buna görə də «maliyyə» çox vaxt «pul» anlayışı ilə eyniləşdirilir. Lakin onlar iki müxtəlif və qarşılıqlı əlaqədə olan anlayışlardır. Maliyyə puldan istər məzmununa və istərsə də yerinə yetirdiyi funksiyalara görə əhəmiyyətli dərəcədə fərqlənir. Pul kortəbii olaraq özünü əmtəə kütləsindən ayrılmış xüsusi növ əmtəədir. Onun xüsusiyyətləri ondan ibarətdir ki, pul bütün tərəflər üçün ümumi ekvivalent rolunu oynayır və onun vasitəsilə əmtəə isteh-salçılarının əmək məsrəfləri ölçülür. Pulun başlıca təyinatı onun funksiyalarında ifadə edilir. Maliyyə – pul vəsaitlərinin özü deyil, pul vəsaitləri fondlarının yaradılması, bölüşdürülməsi və istifadəsinə dair insanlar arasındakı münasibətlərdir. Maliyyə mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yenidən bölgüsü və istifadəsi prosesində ictimai-iqtisadi münasibətlərin fəaliyyəti ilə bilavasitə əlaqədardır. Maliyyə – milli gəlirin bölgüsü və yenidən bölgüsü əsasında pul vəsaitləri fondlarının yaradılması və istifadəsi üzrə iqtisadi münasibətlər sistemidir. Pul fondları vəsaitlərinin hərəkəti ilə yaranan pul münasibətlərinin məcmusu maliyyə münasibətləri əmələ gətirir. Bir elm kimi maliyyənin predmeti ümumi daxili məhsulun və milli gəlirin bölgüsü və yenidən bölgüsü pul vəsaitləri fondlarının yaradılması və istifadəsi ilə əlaqədər iqtisadi münasibətlər sistemindən ibarətdir:

- Maliyyənin iqtisadi mahiyyətini və zəruriliyini izah etmək;
- Azərbaycan Respublikası maliyyə sisteminin həlqələrinin xarakteristikasını araşdırmaq;
- Maliyyə ölkənin xalq təsərrüfatının bütün bölmələrindən pul vəsaitləri fon-larının yaradılması, formalaşdırılması, bölgüsü və istefadəsi ilə əlaqədar maliyyə münasibətlər sistemi olduğunu dərk etmək;
- Maliyyə və kreditin mahiyyətini, funksiyalarını bazar münasibəti şəraitində onların iqtisadi rolunun izah edilməsi;
- Dövlət maliyyə siyasəti, maliyyə və kredit siyasətinin təşkili və strukturunu öyrənmək;
- Azərbaycan Resbulikasının maliyyə və kredit sisteminin idarəedilməsini öyrənmək;
- Dövlət maliyyəsinin (dövlət büdcəsinin və büdcədənkənar fonların, deövlət kreditinin) formalaşması mənbələrini izah etmək;
- Kreditin növlərini və onlardan istifadənin əsas istiqamətlərini öyrənmək;
- Müxtəlif fəaliyyət sahəsində maliyyənin təşkili prinsipləri, məqsədli pul fondlarının formalaşması və istifadəsinin əsaslarını şərh etmək.

## 4.Fənnin tədrisi nəticəsində əldə olunan kompetensiyalar

Kompetensiya - fənnin mənimsənilməsi nəticəsində əldə olunan bilik, bacarıq və vərdişlərin praktiki tətbiqidir. Ümumi kompetensiyalar bilik üzərində əsaslanmış müasir cəmiyyətdə peşəkar və şəxsi sahədə özünü uğurla reallaşdırmaq üçün lazım olan şəxsi, metodiki və sosial kompetensiyalardır. Fənn kompetensiyaları fənn bacarıqlarının mənimsənilməsini təmin edən nəzəri, praktiki və ya eksperimental biliklər və bacarıqlar deməkdir.

**Fənni mənimsəyən hər bir tələbə:**

- Maliyyə və kreditin mahiyyəti və funksiyalarının araşdırmaq, bazar iqtisadiyyatı şəraitində onların rolunu dərk etmək;
- Ümumi Milli Məhsulun (ÜMM) sahə və regionlar arasında bölüşdürülməsinin, onların kəmiyyət və keyfiyyət proporsiyalarını müəyyən etmək;
- Dövlətin iqtisadiyyatının və maliyyənin idarəedilməsi işinə qarışmağ səviyyəsini müəyyələşdirimək, bu prossesin maliyyə - kredit alətləri vasitəsi ilə həyata keçirmək mexanizmini öyrənmək;
- Maliyyənin. Kreditin, vergilərin mahiyyətini öyrənmək, onların vasitəsi ilə istehsalın səmərəliliyinə təsir etmək bacarığına yiyələnmək;
- Maliyyənin ayrı-ayrı problemlərinə elmi cəhətdən yanaşmaq;
- Maliyyə və kredit münasibətlərinin təkmilləşdirilməsi üçün konkret istiqamətlər hazırlanır.

Tədris prosesi zamanı aşağıdakı tədris metodlarından istifadə edilir:

- dialoq forması (nəzəri izahatlar və praktik nümunələrlə);
- müzakirə forması (fərdi çıxışlarla bağlı disputların aparılması, məruzələrin, esselərin və referatların müzakirəsi); -
- tələbələrin müstəqil işi (tövsiyə olunan ədəbiyyatın tədqiqi, referat yazmaq, seminar məşğələlərinə məruzələr hazırlamaq).

Bunlardan əlavə kursun tam və hərtərəfli öyrənilib mənimsənilməsi üçün fənnin tədrisi zamanı kredit sistemi əsasında müasir təlim metodları olan interaktiv, kommunikativ, kooperativ, ənənəvi və müəllim tərəfindən əlavə olaraq şərh; tənqid; müqayisə; analiz; ümümiləşdirmə; emprik yanaşma; prezentasiyaların təşkili metodlardan da istifadə edilir:

# 5.Fənnin xarakteristikası
# Fənnin öyrənilməsinin təqvim planı

| № | Mövzunun adı | Ayrılan saatlar | | Tədrisin forması |
|---|---|---|---|---|
| 1 | Pulun müasir iqtisadiyyatda rolu. Pulun yaranması və mahiyyəti. | 2 | | qarışıq |
| 2 | Pulun növləri və pulun funksiyaları. | 2 | 2 | “______” |
| 3 | Pul tədavülü, onun təşkili və quruluşu. Pul tədavülü qanunu. | 2 | | “______” |
| 4 | Pul sistemi. Pul sisteminin tipləri və strukturu. | 2 | 2 | “______” |
| 5 | Pul sisteminin əsas elementləri və nəzəri əsasları. Azərbaycan pul sisteminin inkişaf tarixi. | 2 | | “______” |
| 6 | Maliyyənin mahiyyəti və funksiyaları. Bazar təsərrüfatında maliyyənin zəruriliyi. | 2 | 2 | “______” |
| 7 | Azərbaycan Respublikası maliyyə sistemi. Dövlət maliyyə sistemi orqanları və orqanların vəzifələri. | 2 | | “______” |
| 8 | Maliyyə siyasəti. Maliyyə siyasətinin mahiyyəti və prinsipləri . | 2 | 2 | “______” |
| 9 | Maliyyənin idarəedilməsi. Maliyyənin idarəedilməsi mahiyyəti və metodları. Mliyyənin dövlət idarəetmə orqanları sistemi və onların vəzifəsi. | 2 | | “______” |
| 10 | Maliyyənin idarəedilməsinin avtomatlaşdırılmış sistemi. Maliyyə nəzarətinin növləri, formaları və metodları. | 2 | 2 | “______” |
| 11 | Müasir kredit sistemi və kredit. Borc kapitalı bazarının quruluşu. | 2 | | “______” |
| 12 | Kreditin mahiyyəti və quruluşu. Kreditin funksiyaları | 2 | 2 | “______” |
| 13 | Kreditin növləri. Kreditin prinsipləri və formaları. | 2 | | “______” |
| 14 | Borc kapitalı bazarının funksiyaları. Sələm kapitalı. | 2 | 2 | |
| 15 | Qiymətli kağız bazarı. Qiymətli kağızlar və onların xüsusiyyətləri. Səhimlər. | 2 | | “______” |
| 16 | İnflyasiya. İnflyasiya anlayışı və onun mahiyyəti. İnflyasiyanın forma və növləri. | 2 | 2 | “______” |
| 17 | Kreditin differensiallıq prinsipi. Borc kapitalı və faiz. | 2 | | “______” |
| 18 | Borc kapitalı bazarının inkişafının xüsusiyyətləri. | 2 | 2 | “______” |
| 19 | İpoteka krediti. Banklar arası kredit. | 2 | | “______” |
| 20 | Kredit sisteminin fəaliyyət mexanizmi və bu sistemin bazar iqtisadiyyatına keçid və əlaqədar inkişaf mərhələsi. | 2 | 2 | “______” |
| 21 | Bank sistemi. Bank içinin yaranması və inkişaf tarixi. | 2 | | “______” |
| 22 | Bankların təşkili xüsusiyyətləri. Bankların təsnifləndirilməsi. | 2 | 2 | “______” |
| 23 | İnkişaf etmiş ölkələrin bank sisteminin quruluş xüsusiyyətləri. | 2 | | “______” |
| 24 | M.B. passiv əməliyyatları. M.B. aktiv əməliyyatları. | 2 | 2 | “______” |
| 25 | Kommersiya banklarının funksiyaları. Kommersiya banklarının təşkilati və idarəetmə strukturu. | 2 | | “______” |
| 26 | M.B təşkili, formaları və funksiyaları. | 2 | 2 | “______” |
| 27 | Kommersiya banklarının fəaliyyət prinsipi. Azərbaycan bank sisteminin formalaşması. | 2 | | “______” |
| 28 | Kommersiya banklarının yaranması, qeydiyyatı və ləğvi qaydaları. | 2 | 2 | “______” |
| 29 | M.B. yaranma tarixi, məqsəd və vəzifələri. | 2 | | “______” |
| 30 | M.B. Kommersiya bankları ilə qarşılığlı münasibətləri və tənzimlənmə metodları. | 2 | 2 | “______” |
| | **CƏMİ** | **60** | **30** | |
| | **YEKUN** | **90** | | |

## 6.Fənn üzrə sərbəst mövzuları

Fənn üzrə semestr ərzində 10 sərbəst iş tapşırığı verilir. Hər tapşırığın yerinə yetirilməsi 1 balla qiymətləndirilir.

Sərbəst işlərin mövzuları və təhvil verilmə tarixi:

| № | Mövzular | Son tarix |
|---|---|---|
| 1 | Pulun müasir iqtisadiyyatda rolu. | 4-cü həftə |
| 2 | Pul sistemi. Pul sisteminin tipləri və strukturu. | 5-ci həftə |
| 3 | Bazar təsərrüfatında maliyyənin zəruriliyi. | 6-cı həftə |
| 4 | Dövlət maliyyə sistemi orqanları və onların vəzifələri. | 7-ci həftə |
| 5 | Müasir kredit sistemi və kredit. | 8-ci həftə |
| 6 | Borc kapitalının bazarının quruluşu. | 9-cu həftə |
| 7 | Qiymətli kağızlar və onların xüsusiyyətləri. | 10-cu həftə |
| 8 | Bank sistemi. Bank işinin yaranması və inkişaf tarixi. | 11-ci həftə |
| 9 | İnkişaf etmiş ölkələrin bank sisteminin quruluş xüsusiyyətləri. | 12-ci həftə |
| 10 | M.B. kommersiya bankları ilə qarşılıqlı münasibətləri. | 13-cü həftə |

Sərbəst iş yazılı formada, word faylı formasında, həcmi 1-2 səhifə (şrift 12) olmalıdır.

Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məcmusu olduğuna görə **plaqiat** yol verilməzdir.

## 7.Tələbənin nailiyyətlərinin cari və aralıq qiymətləndirilməsi

- Fənn üzrə krediti toplamaq üçün lazımi balın toplanması aşağıdakı kimi olacaq.
- 50 bal- imtahana qədərki bal:
- -10 bal dərslərə davamiyyətə görə; (fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır).
- -10 bal tələbənin sərbəst işinə görə
- -30 bal laboratoriya dərslərinin nəticələrinə görə (fənn üzrə kurs işi və məşğələ dərsi nəzərdə tutulmadığı halda) ;

## 8.Təhsilalma prosesinə nəzarət və tələbələrin biliyinin yekun qiymətləndirilməsi

Tələbənin biliyinin yekun qiymətləndirilməsi imtahan zamanı 50 bal və imtahana qədər 50 bal toplanan ballar cəmi 100 bala bərabərdir. Yekun bal aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| A - | “Əla” | -91-100 |
| B - | “Çox yaxşı” | -81-90 |
| C - | “Yaxşı” | -71-80 |
| D - | “Kafi” | -61-70 |
| E - | “Qənaətbəxş” | -51-60 |
| F - | “Qeyri-kafi” | - 51 baldan aşağı |

Yekun qiymətləndirmə 51 bal və ondan yuxarı bal toplayn tələbə fənn üzrə müəyyən olunmuş krediti qazanır və müvəffəqiyyət qazanan tələbə, 51 baldan aşağı bal toplayan tələbə isə həmin fəndən krediti qa-zanmır və akademik borcu olan tələbə adlanır.

## 9.İstifadə olunan ədəbiyyat


1. Məmmədo S. Maliyyə. Bakı 2000
2. Novruzov N., Hüseynov X. Maliyyə. Bakı, 2001
3. Maliyyə, pul tədavülü və kredit. Bakı, 2006
4. Əskərova R. Pul kredit və banklar.Bakı, 2001
5. Maliyyə resursları və maliyyə bazarı.Bakı, 2000
6. Sadıqov M., Bələdov N. Pul kredit və banklar. Bakı, 2001
7. Dövrü məətbuat


- Fənnin bütün movzuları üzrə mühazirə mətnləri elektron formada kollecin saytında yerləşdirilib.

## 10.Tələbənin nizam- intizamına qoyulan tələblər

- Pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- Təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq, ictimai asayiş və daxili intizam, davranış qaydalarının tələblərinə riayət etmək;
- Auditoriya daxili təlim məşğələlərində iştirak etmək, müvafiq tədris planlarında və kursların işçi proqramlarında nəzərdə tutulmuş bütün növ tapşırıqları müəyyən edilmiş dövrlərdə yerinə yetirmək;
- Kollecin otaqlarına, tədris-laboratoriya avadanlığına, cihazlara,dərs vəsaitlərinə, kitablarına və digər əmlakına qayğı və səliqə ilə yanaşmaq, onların korlanmasına, zədələnməsinə və itməsinə yol verməmək, otaqlarında onların təmizliyə və səliqəyə riayət etmək.